## Görkəmli şəxsiyyətlərin fikirləri

“Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və zənginləşibdir. Azərbaycan ədəbi dilinin saflığına daim qayğı göstərilməlidir. Çünki dil xalqın sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Lakin mədəniyyətin və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşdirilməsinə, onun söz ehtiyatının zənginləşməsinə daha çox qayğı göstərmək lazımdır”.

"Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. ...Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır".

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm”

“Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi etmisdir. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Mən keçmişdə də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini - dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir".

“Xalqı xalq edən, milləti millət edən onun ana dilidir”.

**“**Özümüzün adı var – Azərbaycan. Özümüzün dili var – Azərbaycan dili və çox da gözəl dilimiz var. Çox belə ləzzətli dilimiz var. Mənim üçün Azərbaycan dili hər şeydən əzizdir. Millətin milliliyini saxlayan onun dilidir”.

“Öz dilini sevməyən adam öz tarixini bilə bilməz. Ana dilini bilməyən gənc Nizamini oxuya bilməz. Füzulini oxuya bilməz. Cəlil Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaq”.

"Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur."

"Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir".

**Heydər Əliyev,**
*Ümummilli Lider*

"Ana dilimiz öz imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik quruluşunun sabitliyi ilə səciyyələnir. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir".

"Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik".

"Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir".

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

"Ərənlərimiz bizə üç əmanət qoyub getmişlər: dilimiz, torpağımız və qeyrətimiz".

**Şah İsmayıl Xətai,**
*Sərkərdə, dövlət xadimi*

Əbədi şadlığın şərabi üçün
Sözdən özgə cahanda yox, saqi.
Sözün ölməzliyinə söz yoxdur,
Biz gedərsək də söz qalar baqi.

**Məhəmməd Füzuli,**
*Azərbaycan şairi, mütəfəkkiri*

"Hər bir millətin tarixi o millətin zaman keçdikcə müxtəlif səviyyədə gerçəkləşən ruhudur. Bir millətin öz saflığına, gücünə inanıb və ona sığınması möcüzələr yarada bilər”.

**Georq Vilhelm Fridrix Hegel,**
*Filosof*

“Avropada fransız dili necə əhəmiyyətə malikdirsə, Qafqazda da Azərbaycan dili o cür əhəmiyyətə malikdir”.

**Aleksandr Düma,**
*Yazıçı*

"Ana dilində təhsil almayan bir uşaq böyüdükdən sonra üzünə nə qədər vətənpərvərlik maskası taxsa da, aid olduğu millətə deyil, dilində təlim-tərbiyə gördüyü millətə xidmət edəcəkdir!"

“Ana dili məhv olarkən, xalq artıq yox olur. Xalqın dili yaşadıqca xalq da yaşayır”.

**Konstantin Uşinski,**
*Pedaqoq*

“İnsanın şərəfinin bir dəlili də nitqidir. Lazımdır ki, hər kəs elə danışsın, elə yazsın ki, onu mümkün mərtəbədə avam da başa düşsün... Həqiqət, qəzetə camaat üçündür, camaat qəzetə üçün deyildir”.

**Həsən bəy Zərdabi,**
*Azərbaycanın görkəmli nümayəndəsi, alim*

"Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir. Bu, Allah-taalanın gözəl nemətlərindən biridir, onu əziz və möhtərəm tutmaq hər kəsə borcdur”.

Ərəb və fars kəlmə və ibarələrinin şövq və həvəsində olub, ehtiyac olmadığı halda onları ana dilinə qatıb-qarışdırmaq, bizim əqidəmizə böyük səhvdir. Vaxta ki, ana dilində şeyin özünün məxsusi adı var və yaniki ana dili ilə birmənalı bəyan etmək və bir əhvalatı necə ki, lazımdır söyləmək mümkün olur, insaf deyil ki, elm göstərmək və “mollalıq” izhar etmək iddiatına düşüb, kəlamı qəliz ibarələrlə və çətin anlaşılan ərəb və fars sözləri ilə doldurub, əsil mənanı daha da dərinə salmaq və onun üzünə qəliz ibarələrdən toxunmuş pərdə çəkmək. Dil nə qədər açıq, sadə olsa bir o qədər gözəl, göyçək və məqbul olar.

**Firidun bəy Köçərli,**
*Maarifçi, pedaqoq, ədəbiyyatşünas, publisist*

Əgər məndən soruşsalar ki, milliyyətcə kimsən?
Hünərlə deyərəm: Azərbaycanlı!
Müsahibim inad göstərib öyrənmək istəsə
Sərvətdən dövlətdən, naz-nemətdən nəyim var:
Qürur hissi ilə deyərdim: Bütün kainat, Yer üzünü təsvir və tərənnüm etməyə qadir
Sözüm, ana dilim var.

**Cəlil Məmmədquluzadə,**
*İctimai xadim, yazıçı, dramaturq*

"Bir millət sözünü tanımayınca, hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır.

"Ana dili! Bir dil ki, mehriban bir vücud öz məhəbbətin sənə bu dildə bəyan edir.
Bir dil ki, sən hələ beşikdə ikən bir lay-lay şəkilində öz ahəng və lətafətini sənə eşitdirib,
Ruhun ən dərin guşələrində nəqş bağlayıbdır".

**Nəriman Nərimanov,**
*İctimai-siyasi xadim, yazıçı*

"Milliyyətin ümdə rüxnünü (simasını - İ.V.) təşkil edən şey dildir. Dil hər bir heyətin hansı bəşər dəstəsinə mənsub olduğunu göstərən bir lövhədir. Çünki dil həmən millət deməkdir".

**Məhəmməd Əmin Rəsulzadə,**
*Dövlət xadimi, yazıçı, tərcüməçi*

"Ana dilimizə əhəmiyyət verməsək, ola bilər ki, bir gün dilimiz itər-batar, yox olar və bir millətin də ki, dili batdı, o millətin özü də batar, çünki bir millətin varlığına, yaşamasına isbat vücud onun dilidir".

**Üzeyir Hacıbəyov,**
*Bəstəkar, dirijor, musiqişünas*

"Azərbaycan türkcəsi, milliyyətimiz də Azərbaycan türkü, ən doğrusu budur".

Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əcdadımızın bizə miras verdiyi
Qiymətli xəzinədir...onu gözlərimiz tək

“Ana dilimizi genişləndirib ədəbi bir qaydaya salmalıyıq. Bunun üçün də ədəbiyyatımıza, teatro və musiqimizə meydan verməliyik və bu yolda çalışan şəxslərin qədrini bilib, gələcəklərini təmin etməliyik”.

**Yusif Vəzir Çəmənzəminli,**
*Yazıçı, dövlət xadimi*

“Xalqın böyük bir dövləti də vardır. Əlbəttə, müqəddəs bir dövləti də vardır. O da xalqımızın dilidir. Dil xalqın namusu deməkdir, tarixi deməkdir, vicdanı deməkdir. Biz dil məsələsini hər bir yerdə göz bəbəyimiz kimi gözləməliyik”.

**Səməd Vurğun,**
*Azərbaycan Respublikasının Xalq Şairi*

Türkün dili tək sevgili, istəkli dil olmaz,
Özgə dilə qatsan, bu əsil dil əsil olmaz.

**Məhəmmədhüseyn Şəhriyar,**
*Şair*

Mən sənin dilinə dəymirəm, cəllad,
Gəl sən də bu ana dilimə dəymə.
Sənin də bağın var, gülün var, çəkin,
Bağıma əkdiyim gülümə dəymə.

Dil könüllər fəth edən
Böyük insan gücüdür.

**Süleyman Rüstəm,**
*Şair, dramaturq, tərcüməçi, ictimai xadim*

Dili qiymətdən salar
Ucuz söz, hiylə, böhtan.
Elə saxla dilini,
Nə dil səndən utansın,
Nə sən dilindən utan.

**Rəsul Rza,**
*Şair, dramaturq, tərcüməçi, ictimai xadim*

“Söz qiymətli daşlar kimidir. Bu daşları yaxşı yonub, cilalandırıb ən şərəfli sarayların mərmər divarlarını bəzəmək üçün işlədirlər. Bədii dil xalqın mənəvi sərvəti olmaqdan əlavə,insanların fikrini, hissiyyatını, zövqünü tərbiyə edən çox güclü vasitədir”.

"Azərbaycan dili qanadlı xəyalları, coşqun ehtirasları, dərin fikirləri ifadə edə bilir. Eyni zamanda bu dil gözəldir, cazibədardır, şerlə, ahənglə, musiqi ilə doludur.”

**Mirzə İbrahimov,**
*Yazıçı, dramaturq, ictimai xadim*

“Bu “Azərbaycan” sözü ki, var, bu bizim müstəqillik dövrümüzdə, yəni bütün dünya ölkələri qabağında ölkəmizin adı Azərbaycan və xalqımızın dili Azərbaycan dilidir”.

**Ziya Bünyadov,**
*Tarix elmləri doktoru, Şərqşünas*

Ucalır bağçada bülbülün səsi,
Çay susur, əsməyir çəməndə yel də.
Nə qədər doğmadır onun nəğməsi
Bülbül də elə bil ötür bu dildə.

**Nəbi Xəzri,**
*Şair, nasir, dramaturq, publisist*

Qoruyub, nəsillərə biz də hədiyyə verək.

Ey doğma dilində
danışmağı ar bilən
fasonlu ədabazlar,
Ruhunuzu oxşamır
qoşmalar, telli sazlar,
Bunlar qoy mənim olsun.
Ancaq Vətən çörəyi
sizlərə qənim olsun.

**Bəxtiyar Vahabzadə,**
*Şair, dramaturq, ədəbiyyatşünas*

Kim qorumur öz dilini,
itsin mənim gözlərimdən ilim- ilim,
O sahili bu sahillə birləşdirən
polad körpüm, qılıncımdır,
günəşimdir mənim dilim!

**Xəlil Rza Ulutürk,**
*Azərbaycan Respublikasının Xalq Şairi*

“Vətən torpağı kiçilib-genişlənə bilər. Şan-şöhrəti tapdalana bilər. Hətta dini dəyişdirilə bilər. Lakin bir şey dəyişmir. Qalan bu tək varlıq ana dilidir”.

**Qəzənfər Paşayev,**
*Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, professor*

“Azərbaycan dili xalqımızın ən böyük mənəvi sərvətlərindən, milli kimliyimizin əsas sütunlarından biridir. Tarix boyu Azərbaycan xalqı öz ana dilinə sahib çıxmaqla milli varlığını qoruyub, onu ədəbi, elmi, ictimai, beynəlxalq müstəviyə çıxarıb. Müasir dövrdə bu məsələ dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib”.

**Anar,**
*Azərbaycan Respublikasının Xalq Yazıçısı*

“Bizim dilimiz ahəngdar, axarlı və çox şirin dildir. Dilimiz dünya xalqları dilləri içərisində ən qədim dillərdən biridir. Ananın südü insanın pərvərişinin əsası olduğu kimi, anamızın dili də ruhumuzun, mənəviyyatımızın, kamilliyimizin qidasıdır. Hər bir azərbaycanlı ana dilimizi mükəmməl bilməli, onu göz bəbəyi kimi qorumalıdır. İnsanın öz ana dilinə münasibəti onun mənəvi səviyyəsini, vətəndaşlıq qayəsini müəyyən edir. Azərbaycan dilini sevmədən gözəl torpağımızı sevmək mümkün deyil”.

**Zahid Xəlil,**
*Yazıçı, şair, pedaqoq*

Füzuli zirvəli, Vaqif arxalı,
Mənim Qorqud dilim, Ələsgər dilim.
Ömrümün naxışı, bəxtimin xalı,
Dadda, şirinlikdə bal, şəkər dilim!

**Zəlimxan Yaqub,**
*Azərbaycan Respublikasının Xalq Şairi*

“Bu gün Azərbaycan dilinin üstünlüklərindən biri də odur ki, Azərbaycan dövləti bu dili qoruyur və onun imkanlarını genişləndirir. Azərbaycan dilinin inkişafını təmin etmək üçün çox sayda sənədlər qəbul olunub. Bu inkişaf təmin olunmasa, dili qorumaq anlayışı da kifayət qədər ciddi səslənməz. Çünki dil o zaman qorunur ki, o, inkişaf edir və ictimai şüurun müxtəlif sahələrində istifadə olunur. Dil o dildə danışan insanların intellektual enerjisi ilə irəli gedə bilir”.

**Nizami Cəfərov,**
*Siyasətçi, filoloq, ədəbiyyatşünas*